# İxrac olunan qeyri-neft məhsullarının həcmi və çeşidi artır

## Xarici ticarətdə 10,3 milyard dollarlıq müsbət saldo var

Dünyada ölkələrin iqtisadi inkişaf dinamikasını müəyyən edən faktorlardan biri də xarici ticarət dövriyyəsidir. Bu, həm də ölkələrin istehsal və xidmət sektorunun inkişaf göstəricisidir. Xarici ticarət dövriyyəsində nailiyyəti göstərən əsas amil isə müsbət saldodur, yəni ixracın idxalı üstələməsi. Müsbət saldo həmçinin ölkənin gəlirlik səviyyəsini müəyyən edən meyardır.

Məlumdur ki, daha çox ixrac ölkənin maliyyə sabitliyinin əldə edilməsinə imkan verir. İdxalın ixracdan çox olması valyutanın ölkədən çıxışına, gəlirlərin azalmasına, tədricən ölkənin alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Odur ki, yüksək gəlir əldə edən ölkənin idxalda payı ixracdan az olması iqtisadi cəhətdən yaxşı hal sayılır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar ölkənin hərtərəfli inkişafını təmin etməklə yanaşı, onun maliyyə imkanlarını da genişləndirib. Sözsüz ki, bu gəlirlərin əldə edilməsində ölkənin ixrac qabiliyyətinin ildən-ilə artması az rol oynamır. Məsələn, 2003-cü ildəki 5,2 milyard dollarlıq xarici ticarət dövriyyəsi 2022-ci ildə 51,2 milyard dollara qədər yüksəlib. Həmin dövrdə ixracın həcmi 2,6 milyard dollardan 38,1 milyard dollara çatıb. Xarici ticarətdə əldə olunan belə nailiyyətlər ölkənin maliyyə sabitliyinin təmin edilməsinə öz müsbət təsirini göstərib. Hazırda ölkənin valyuta ehtiyatı 69,5 milyard dollara çatıb. Əhalisi 10 milyon nəfər olan ölkə üçün bu, yüksək rəqəmdir.

Ötən il xarici ticarət dövriyyəsindəki müsbət dinamika davam etmişdir. Azərbaycandakı hüquqi və fiziki şəxslər dünyanın 193 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 121 ölkəyə məhsul ixrac, 184 ölkədən isə idxal olunmuşdur. İl ərzində gömrük orqanlarında qeydiyyata alınmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış, ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla xarici ticarət dövriyyəsi 44 milyard 868,5 milyon, o cümlədən ixracın dəyəri 27 milyard 583,2 milyon, idxalın dəyəri 17 milyard 285,3 milyon dollar təşkil etmiş, nəticədə 10 milyard 297,9 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, il ərzində xarici ticarət dövriyyəsinin 90,6 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, İsrail, Hindistan, Yunanıstan, ABŞ, İspaniya, Gürcüstan, Birləşmiş Krallıq, Türkmənistan, Çexiya, Rumıniya, Xorvatiya, Fransa, Bolqarıstan, İran, Vyetnam, Yaponiya, Koreya və İordaniya ilə aparılmış əməliyyatların payına düşmüşdür.

Ölkəmizin idxal coğrafiyası genişdir. İdxalda əsas partnyorlarımız Rusiya, Çin, Türkiyə, Almaniya, ABŞ, Türkmənistan, İtaliya, İran, Yaponiya, Koreya, Fransa, Bolqarıstan, Braziliya və Hindistandır. İdxal olunan mallarda isə maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, mineral məhsullarının, kimya sənayesi məhsullarının, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, hazır ərzaq məhsulların, içki və tütün məmulatlarının,  bitki mənşəli yağların, toxuculuq malları və məmulatların, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri üstünlük təşkil etmişdir. Onu da qeyd edək ki, 2022-ci illə müqayisədə 2023-cü ildə bir çox məhsulların idxalı azalmışdır. Bunun bir çox səbəbləri var. Onlardan biri də müəyyən məhsul növləri üzrə daxili istehsalın artmasıdır.

İxracda isə əsas tərəfdaşlarımız İtaliya, Türkiyə, İsrail, Yunanıstan, Hindistan, Rusiya, Almaniya, İspaniya, Gürcüstan və s. ölkələrdir. Məlum olduğu kimi, ixracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsulları üstünlük təşkil edir. Bununla yanaşı, ötən il ixracda meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və ondan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, bitki yağlarının da payı yüksək olmuşdur.




Ötən il ölkə üzrə qeyri-neft məhsullarının ixracı 2022-ci illə müqayisədə faktiki qiymətlərlə 9,8, real ifadədə 3,9 faiz artaraq 3 milyard 348 milyon dollara bərabər olmuşdur. Bu sektor üzrə ixracda müşahidə edilən yüksəliş ölkədə icra olunan iqtisadi islahatlarla bağlıdır. Ölkədə açılan müasir müəssisələr, kənd təsərrüfatında yeni texnika və texnologiyalardan istifadə istehsal edilən mal və məhsulların rəqabətqabiliyyətli olmasına imkan verir ki, bu da birbaşa ixrac məhsullarının  həcminə və çeşidinə təsir göstərir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 27 fevral, № 44.- S.9.